Azad Azərbaycan

8 iyun / 2021

# Adını tarixə qanı ilə yazan Vətən sevdalısı: Kamran Fərəcov

**Vətəni canından əziz tutan, 42 yaşında onun yolunda müqəddəs şəhidlik zirvəsinə ucalan mayor Kamran Fərəcov haqqında danışmaq istəyirəm. Astara elinin qəhrəman oğlu elə bir ömür yolu keçdi ki, odu-alovu Vətənin özü boyda ilahi bir məhəbbətə dönüb milyonların ürəyində özünə yer etdi.**



44 gün çəkən, xalqımıza şan-şöhrət gətirən İkinci Qarabağ müharibəsində haqq savaşımızda torpağı qanı ilə Vətən etməklə Kamran Azərbaycanın şərəfini uca tuta bildi. İndi cismən aramızda olmasa da, yaşadığı həyat millətinə şərəfdir, qeyrətdir, ucalıq zirvəsidir. Eləcə də qərinələr keçəcək, gələcək nəsillər onu belə xatırlayaraq və saflığı, təmizliyi, igidliyi dillərdən düşməyəcək. Və həm də dövlət tərəfindən layiq görüldüyü "Vətən uğrunda", "Cəbrayılın azad olunmasına görə", "Qubadlının azad olunmasına görə" medalları Kamranın göstərdiyi hünərə canlı şahidlik edəcək.

Mayor Kamran Fərəcov ağlı kəsəndən Vətəni, xalqı üçün yaşamağı özünə həyat kredosu seçir. Məhz insan xoşbəxtliyini, səadətini bu yolda görür. Saf, duru insanlardan götürə-götürə yetkinlik yaşına çatan Kamran yalnız nəcib, xeyirxah məqsədlərə can atır.

Vətəninə qəlbən bağlılığı onu 1995-ci ildə Bakı Ali Birləşmiş Komandanlıq məktəbinə aparır. Başa düşür ki, torpaqları düşmən əsarətində olan bir Vətən övladı üçün hərbinin sirlərini bilmək daha vacibdir. Kamran məktəbdə təhsil aldığı vaxt nizam-intizamı sevir, Vətənə sədaqətlə qulluq edib düşmənin başını əzməkdən ötrü daha ürəklə, ehtirasla öyrənir.

1999-cu ildə məktəbi bitirib leytenant rütbəsində Bakıda tağım komandiri olur. Həyatda seçdiyi yolun düzgünlüyünə inanır, savadlı, peşəkar, cəsur, əsgərlərinə dost-qardaş, Vətəninə bağlı şəxs kimi sevilir. Daha sonra Ağdamda, Gəncədə, Goranboyda, düşmənlə təmas xəttində doğma Azərbaycanın ən etibarlı, sədaqətli keşikçisi olmaqla, yüksək mədəniyyəti, gözəl əxlaqı, təmiz əməli, işinə sədaqəti başqaların qəlbini də Vətən sevgisi ilə coşdurur. Bir qayda olaraq həmişə hərbi bilik və bacarığını artırır, tabeliyində olanları canından artıq sevir...

**2020-ci ilin 27 sentyabrında Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusunun Qarabağın azadlığı üçün başlatdığı mübarizədə mayor Kamran Fərəcov özünü odlu-alovlu səngərlərə birinci atır. Düşmənin başını əzmədən ötrü döyüşdən-döyüşə sanki ona yeni bir qüvvə, güc gəlir. Böyük qəhrəmanlıq göstərərək Cəbrayılın, Qubadlının azadlığı uğrunda düşmənin çoxlu sayda texnikasını, canlı qüvvəsini məhv edir. Həmişə öndə gedən, Vətən torpağının hər qarışı naminə igidliklə döyüşən komandir oktyabrın 21-də qəfil açılan namərd gülləsindən savaş meydanında şəhid olur. Vətənə olan sonsuz məhəbbəti ilə elə Vətən səmasının əbədi parlaq Günəşinə çevrilir, mayor Kamran Fərəcov.**

**Zəfər ORUCOĞLU**